# TOPÇUBAŞOV
# MƏHKƏMƏ MÜSABİQƏSİ
# 2025

# QAYDALAR

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: mcs.bsulawss.org

E-poçt: mootcourtsociety@bsulawss.org

# MÜNDƏRİCAT

Müsabiqə haqqında məlumat 1
I. Ümumi müddəalar 1
II. Yazılı təqdimatlar 3
III. Şifahi raundlar 5
IV. Seçim mərhələsi 7
V. Yarımfinal mərhələsi 7
VI. Final mərhələsi 8
VII. Qiymətləndirmə və sıralama 8
VIII. Tətbiq olunan hüquq 12
IX. Cəzalar 12
X. Nominasiyalar 14

## Müsabiqə haqqında məlumat

Topçubaşov Məhkəmə Müsabiqəsi (bundan sonra "Müsabiqə"; ingiliscə: *Topchubashov Moot Court Competition*) Əlimərdan bəy Topçubaşovun xatirəsinə həsr olunmuş hüquqi arqumentasiyaya əsaslanan müsabiqədir. Müsabiqə Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyəti (bundan sonra "TEC") nəzdində fəaliyyət göstərən Məhkəmə Müsabiqə Cəmiyyəti (bundan sonra "Təşkilatçı") tərəfindən təşkil edilir və Seçim, Yarımfinal və Final mərhələlərindən ibarətdir.

## I. Ümumi müddəalar

I.1. **Qaydaların tətbiq dairəsi**. Bu Qaydalar Müsabiqənin bütün gedişatını tənzimləyir. Qaydalar ilə bağlı suallar Müsabiqənin rəsmi e-poçtuna yönləndirilməlidir: mootcourtsociety@bsulawss.org

I.2. **Müsabiqə işi**. Təşkilatçı Müsabiqə Təqvimində (bundan sonra "Təqvim") göstərilən tarixdə Müsabiqə İşini (bundan sonra "İş") Müsabiqə veb-saytında yerləşdirir. Müsabiqə bu İşdəki hüquqi məsələlər barədə iştirakçı komandaların formalaşdırdığı arqumentlər üzrə aparılır.

I.3. **Uyğunluq**. Bakalavr və magistr təhsili alan hüquq tələbələrindən təşkil olunmuş komandalar Müsabiqədə iştirak edə bilərlər. Hər bir komanda minimum 2 (iki), maksimum isə 6 (altı) üzvdən ibarət ola bilər.

I.4. **Qeydiyyat**. İştirak etmək istəyən komandalar müvafiq veb-saytda (https://mcs.bsulawss.org/court/qeydiyyat/) qeydiyyatdan keçməlidir.

I.5. **Komanda nömrəsi**. Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına müvafiq olaraq nömrələnir və nömrə barədə Təşkilatçı tərəfindən komandalara məlumat verilir. Daha sonra

Müsabiqənin gedişində komanda göstəricisi kimi bu nömrə istifadə edilir.

I.6. **Nümayəndə**. Hər bir komanda Təşkilatçı ilə kommunikasiyalarda komandanı təmsil etmək üçün üzvlərindən birini nümayəndə kimi təyin etməlidir. Qeydiyyat zamanı nümayəndənin işlək mobil əlaqə nömrəsi və e-poçt ünvanı təqdim olunmalıdır.

I.7. **Müsabiqədən imtina və komanda tərkibinin dəyişdirilməsi**. Təqvimdə komandanın Müsabiqədən imtinası və ya komanda tərkibinin dəyişdirilməsi barədə məlumatın verilməsinin son tarixi (imtina/dəyişdirilmə üçün son gün) müəyyənləşdirilir. Əgər üzv imtina/dəyişdirilmə son tarixindən əvvəl komandanı tərk edirsə və ya başqası ilə dəyişdirilirsə, tərkibin dəyişdirilməsi barədə məlumat e-poçt vasitəsilə Təşkilatçıya verilir. Bu məlumat imtina/dəyişdirilmə son tarixindən əvvəl verildiyi təqdirdə dəyişdirilmə həyata keçirilə bilər.

I.8. **Xaricdən dəstək**. Müsabiqədə iştirak komanda işidir. Heç bir komanda üzvü Müsabiqənin hər hansı mərhələsi ilə bağlı öz komanda üzvü olmayan hər hansı şəxslə məsləhətləşə, kömək ala, təklif qəbul edə bilməz. Hər iştirakçı komanda yazılı və şifahi təqdimatları üçün hüquqi arqumentlərini yalnız özü araşdırmalı, yazmalı, redaktə etməli və formalaşdırmalıdır.

I.9. **TEC**. TEC fakültədə akademik layihələri həyata keçirən təşkilatdır. O, Topçubaşov Məhkəmə Müsabiqəsinin təşkilatçısı və idarəçisi kimi çıxış edir. Koordinatorlar TEC İdarə Heyətindən təyin edilir və Müsabiqə iştirakçısı ola bilməzlər. TEC tərəfindən Müsabiqənin Baş Koordinatoru kimi təyin olunmuş şəxs Təşkilatçı adından kommunikasiyalarda iştirak edir. Müsabiqənin TEC tərəfindən təyin olunmuş koordinatorları Baş Koordinatorun nəzarəti altında təşkilatçılığı icra edirlər.

I.10. **Mübahisələrin həlli.** Təşkilatçı Qaydaların tətbiqi ilə bağlı mübahisələri həll edir, Müsabiqə gedişində ortaya çıxan və Qaydalarla tənzimlənməyən məsələlər barədə qərar verir. Təşkilatçı bu məsələlər üzrə yekun instansiyadır. Komandalar Qaydaların tətbiqi ilə bağlı mübahisələr istisna olmaqla, digər mübahisələri həll etməsi və ya komandalar arasındakı mübahisələrdə vasitəçilik etməsi üçün koordinatorlara müraciət edə bilməz.

I.11. **Hakimlər**. Təşkilatçı hüquqşünaslar arasından Müsabiqə hakimlərini təyin edir. Hakimlər yazılı və şifahi təqdimatlar barədə Müsabiqə məqsədlərinə uyğun olaraq qiymətlər və qərarlar verirlər. Hakimlərin verdiyi qiymətlər və qərarlar qətidir və mübahisələndirilə bilməz.

## II. Yazılı təqdimatlar

II.1. **Tələb**. Hər bir iştirakçı komanda IV(IV.1) qaydasına əsasən növbəti mərhələyə keçmək üçün biri ərizəçi, biri cavabverən mövqeyindən olan 2 (iki) yazılı mülahizə (bundan sonra "Yazılı") hazırlayıb təqdim etməlidir.

II.2. **Tərkib**. Yazılı aşağıdakılardan ibarət olmalıdır:

i. Üz səhifəsi;
ii. Mündəricat;
iii. Yazılıda istifadə olunmuş mənbələr;
iv. Giriş;
v. İşdə istifadə edilən faktlar;
vi. Hüquqi arqumentlər;
vii. Arqumentlərin xülasəsi;
viii. Məhkəməyə müraciət.

Yazılıların tərkibi və onların necə yazılması barədə ətraflı məlumat vermək üçün "Plan Bələdçisi" Təqvimdə göstərilən tarixdə Müsabiqə veb-saytına yerləşdiriləcəkdir.

II.3. **Üz səhifəsi.** Üz səhifəsində aşağıdakı məlumatlar göstərilməlidir:

i. Məhkəmə adı (Konstitusiya Məhkəməsi);
ii. Tərəflərin təyinatı (ərizəçi / cavabverən) ilə birgə adları;
iii. Komanda nömrəsi və ona bitişik olaraq Yazılının ərizəçi və ya cavabverən mövqeyindən olmasını göstərmək üçün müvafiq olaraq Ə və ya C);
iv. Yazılının təqdimat tarixi.

II.4. **Həcm.** Hər bir Yazılı maksimum 4000 sözdən ibarət ola bilər.

II.5. **İstinadlar.** İstinadlar BDU Tələbə Hüquq Jurnalının istinadlarla bağlı tələblərinə uyğun olmalıdır: http://lr.bsulawss.org/submission/policy.

II.6. **Təqdimat tarixi.** Hər iki Yazılı Təqvimdə göstərilən tarixə kimi təqdim olunmalıdır (qayda IX.3 nəzərə alınmaqla). Əks halda komanda Müsabiqədə iştirak hüququndan məhrum olur.

II.7. **Təqdimat qaydası.** İştirakçı komanda hər iki Yazılını *Microsoft Word* (*.docx) formatında Müsabiqə vebsaytındakı müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Yazılılar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Fayl adı komanda nömrəsindən (i) və Yazılının Ərizəçi və ya Cavabverənə aid olmasını göstərmək üçün müvafiq olaraq "Ə" və ya "C" hərflərindən (ii) ibarət olur (məsələn, 2Ə, 2C). Təşkilatçı elektron versiyanı, başqa qanuni məqsədlərlə birgə, müəyyən olunan söz sayı və digər məhdudiyyətlərə uyğunluğunu təsdiq etmək üçün istifadə edir.

II.8. **Təkrar təqdimat.** Yazılılar təqdimat üçün müəyyən olunmuş son tarixə qədər bir neçə dəfə təkrarən təqdim edilə bilər. Təqvimdə müəyyən olunmuş son tarixdən əvvəlki ən son təqdimat Müsabiqə məqsədləri üçün rəsmi olaraq yekun təqdimat kimi qəbul edilir. Komanda son tarixdən sonrakı təqdimatının əsas alınmasını tələb edərsə, Təşkilatçı IX.3 qaydasındakı cəzanı tətbiq etməklə yeni təqdimatı nəzərə alır. Bu halda yalnız bir dəfə təkrar təqdimat imkanı tanınır.

**II.9. Yazılılardan istifadə**. Bütün göndərilən Yazılılar Təşkilatçının səlahiyyətinə keçir. Təşkilatçı Yazılıları Qaydalara uyğunluğu təsdiq etmək üçün yoxlayır, Qaydalar pozulduğu halda Yazılılara cəza tətbiq edir və onları qiymətləndirmə üçün hakimlərə göndərir. O, Yazılıları öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

**II.10. Qarşı tərəfin Yazılıları**. Təşkilatçı Seçim mərhələsinin şifahi raundlarında iştirak edən komandalara qarşılaşacaqları rəqib komandaların müvafiq Yazılılarını Təqvimdə göstərilmiş vaxta uyğun olaraq komanda səhifəsinə yerləşdirir.

## III. Şifahi raundlar

**III.1. Tərəflər**. Şifahi raundda bir komanda ərizəçi kimi, başqa bir komanda isə cavaberən kimi çıxış edir. Hər komanda iki nəfərlə raundda təmsil olunur. Əvvəlcə ərizəçi komandanın iki üzvü ard-arda hakimlər qarşısında çıxış edir, sonra cavabverən komandanın iki üzvü ard-arda raundu davam etdirir. Ərizəçi təkzib üçün vaxt ayırarsa, cavabverənin əsas çıxışından sonra ərizəçinin bir üzvü təkzib çıxışını edir, dərhal sonra isə cavabverənin bir üzvü əks-təkzib çıxışını edir.

**III.2. Müddət**. Hər bir tərəfin şifahi çəkişmə üçün vaxtı 35 (otuz beş) dəqiqə ilə məhdudlaşır. Hər bir tərəf bu vaxtın maksimum 3 (üç) dəqiqəsini təkzib (əks-təkzib) üçün ayıra bilər. Bir komanda üzvü bir şifahi raundda 20 (iyirmi) dəqiqədən artıq çıxış edə bilməz. Hər bir komanda raunddan əvvəl raundu idarə edən Müsabiqə koordinatoruna üzvləri arasındakı vaxt bölgüsü barədə məlumat verir. Həmin koordinator raund ərzində də istifadə edilən vaxta nəzarət edir və "20", "15", "10", "5", "3", "1", "DAYAN" yazıları çap olunmuş kağızlarla hər fərd üçün qalan vaxtı raund iştirakçılarına nümayiş etdirir. Hakimlərin verdiyi suallar və onların

cavablandırılması da ayrılmış vaxta daxildir. Sədrlik edən hakim vaxt bitəndən sonra çıxış edənə çıxışı sonlandırmaq və ya sualı cavablandırmaq üçün əlavə vaxt ayıra bilər.

III.3. **Çap olunmuş Yazılılar**. İştirakçı komanda təyin olunmuş şifahi raund başlamazdan öncə mövqeyinə aid Yazılını A4 ölçülü kağız daşıyıcıda olmaqla dörd nüsxədə təqdim etməlidir.

III.4. **Çıxışlar**. Ərizəçi və cavabverən tərəf çıxışlarını İş üzrə müvafiq olaraq öz mövqelərini müdafiə edən arqumentlər və əks-arqumentlər əsasında edirlər. Çıxış hakimlər qarşısında, ayaq üstə və tribunada edilir. Çıxış edən şəxsin öz komanda üzvü və ya üzvləri, həmçinin digər kənar şəxslərlə danışması və ya hər hansı şəkildə əlaqə saxlaması qadağan olunur. Şifahi raundlar raundda iştirak etməyən və cari mərhələdə iştirakı davam edən komandalar üçün qapalı keçirilir.

III.5. **Kommunikasiya**. Raundda iştirak edən komanda üzvləri arasında kommunikasiya və ya müzakirə yalnız kağızda yazının ötürülməsi ilə aparıla bilər. Raund zamanı raunda iştirak etməyən komanda üzvləri ilə kommunikasiya qurmaq qadağandır.

III.6. ***Ex parte* proses**. Komanda çıxış etməli olduğu raund üçün Təşkilatçının təyin etdiyi vaxtda gəlməzsə və ya çıxış üçün yetərli sayda komanda üzvü olmazsa, Təşkilatçı 15 (on beş) dəqiqə gözlədikdən sonra mövcud halları nəzərə alaraq raundun *ex parte* keçirilməsinə qərar verə bilər. Bu halda raund yalnız qarşı tərəfin çıxışının qiymətləndirilməsi ilə baş tutur, iştirak etməyən komanda şifahi raundda qazana biləcəyi 6 (altı) raund balından imtina etmiş hesab olunur.

# IV. Seçim mərhələsi

IV.1. **İştirakçılar**. Seçim mərhələsinin iştirakçıları VII(VII.1) qaydaya əsasən Yazılıların qiymətləndirilməsi nəticəsində yekun nəticəsi ən yüksək olan 10 (on) komandadır.

IV.2. **İştirak tələbi**. Hər bir iştirakçı komanda Seçim mərhələsinin şifahi raundlarında bir dəfə ərizəçi, bir dəfə cavabverən kimi çıxış edir. İştirakçı komanda sayını və mövcud şəraiti nəzərə alaraq Təşkilatçı iştirakçı komandaların iki dəfə ərizəçi, iki dəfə cavabverən kimi çıxış etməsinə qərar verə bilər.

IV.3. **Qarşılaşmalar**. Seçim mərhələsinin raundlarında komandalar arasındakı qarşılaşmaları və komandaların hansı qarşılaşmada ərizəçi, hansı qarşılaşmada cavabverən kimi çıxış edəcəyini, habelə raundların vaxtı və yerini Təşkilatçı müəyyən edərək iştirakçı komandaya məlumat verir.

IV.4. **Yarımfinala keçid**. Seçim mərhələsinin bütün raundları tamamlandıqdan sonra VII.3 qaydasına əsasən formalaşan sıralama üzrə ən yuxarı dörd yeri tutmuş komanda Müsabiqənin Yarımfinal mərhələsinə keçir.

# V. Yarımfinal mərhələsi

V.1. **İştirak tələbi**. Yarımfinal mərhələsinə keçmiş hər bir komanda bir dəfə ərizəçi, bir dəfə cavabverən kimi cəmi iki şifahi raundda çıxış edir.

V.2. **Qarşılaşmalar**. Seçim mərhələsinin sıralaması üzrə birinci yeri tutmuş komanda ərizəçi kimi dördüncü yeri tutmuş komandanın cavabverəninə qarşı, cavabverən kimi isə üçüncü yeri tutmuş komandanın ərizəçisinə qarşı çıxış edir. İkinci yeri tutmuş komanda

ərizəçi kimi üçüncü yerin cavabdehinə qarşı, cavabverən kimi isə dördüncü yerin ərizəçisinə qarşı çıxış edir. Yekunda bu mərhələdə toplam dörd qarşılaşma və ya raund baş tutur.

V.3. **Finala keçid.** Yarımfinal mərhələsinin bütün raundları tamamlandıqdan sonra VII.3 qaydasına əsasən formalaşan sıralama üzrə ən yaxşı nəticə göstərmiş iki komanda Final mərhələsinə keçir.

## VI. Final mərhələsi

VI.1. **İştirak tələbi**. Final mərhələsinə keçmiş komandalar yalnız bir raundda qarşılaşır.

VI.2. **Qarşılaşma**. Final mərhələsinə keçmiş komandaların ərizəçi, yaxud cavabverən kimi çıxış edəcəyi Yarımfinal mərhələsinin nəticələri məlum olduqdan sonra Təşkilatçı tərəfindən keçirilən püşkatma əsasında müəyyən olunur.

VI.3. **Qalibiyyət**. Final mərhələsinin qalibi raund hakimlərinin sadə səs çoxluğu ilə müəyyən edilir. Qalib komanda "Topçubaşov Məhkəmə Müsabiqəsinin Qalibi" adını, digər komanda isə "Topçubaşov Məhkəmə Müsabiqəsinin Finalisti" adını qazanır.

## VII. Qiymətləndirmə və sıralama

VII.1. **Yazılılar**. Hər bir Yazılı üç fərqli hakim tərəfindən 50-100 bal aralığında qiymətləndirilir. Yəni bir Yazılının ala biləcəyi xam bal minimum 150, maksimum 300-dür. Fövqəladə hallarda Yazılı yalnız iki fərqli hakim tərəfindən qiymətləndirilə bilər. Bu halda Yazılı üçün üçüncü bal kimi iki hakimin verdiyi balların orta balı nəzərə alınır.

VII.2. **Şifahi raundlar**. Şifahi raundda (Final raundu istisna olmaqla) üç hakimin hər biri tərəfindən hər çıxış edən 50-100 bal aralığında qiymətləndirilir. Həm ərizəçi, həm də cavabverən tərəfdən iki üzv çıxış etdiyinə görə şifahi qiymətləndirmə üzrə bir komandanın bir hakimdən ala biləcəyi xam bal minimum 100, maksimum 200 baldır. Fövqəladə hallarda şifahi raund yalnız iki fərqli hakim tərəfindən qiymətləndirilə bilər. Bu halda şifahi raund üçün üçüncü qiymətləndirmə kimi iki hakimin verdiyi balların ortalamaları nəzərə alınır. Raund nəticəsinin müəyyən olunması aşağıdakı qaydada aparılır:

**Raund nəticəsi**. Qarşılaşmada ən çox raund balı toplayan tərəf raundun qalibi olur. Yekun raund balı Yazılılar və şifahi raundlar üzrə toplanmış raund ballarının cəmindən ibarətdir. Komandaların yekun raund balları bərabər olarsa, daha çox xam bal toplamış tərəf qalib olur. Raund balları və xam ballar bərabər olarsa, hər bir komandanın hesabına bir bərabərlik yazılır və komanda sıralamasında nəzərə alınır. Bir raund üzrə raund balları və xam ballar aşağıdakı qaydada hesablanır:

**a) Yazılılar üzrə raund balları**. Yazılılara verilmiş aşağı, orta və yuxarı xam balların qarşılaşdırılmasından hər üstünlük komandaya 1 (bir) raund balı qazandırır. Qarşılaşdırılmada üstünlük olmazsa, hər belə göstərici üzrə həm ərizəçi, həm cavabverən 0.5 raund bal alır. Beləcə, bir raundda Yazılılar üzrə bir komandanın qazana biləcəyi maksimum raund balı 3 (üç) baldır. Məsələn:

| *Tərəf* | *Aşağı* | *Orta* | *Yuxarı* |
|---|---|---|---|
| Ərizəçi | 74 | 77 | 79 |
| Cavabverən | 75 | 76 | 77 |

*Yazılıların xülasəsi*: Ərizəçi ikinci və üçüncü bal göstəricisi ilə üstün olmaqla 2 raund balı, cavabverən ilk bal göstəricisi ilə 1 raund balı qazanır. Ərizəçinin

toplam xam Yazılı balı 230, cavabverənin toplam xam Yazılı balı 228 olmuşdur.

**b) Şifahilər üzrə raund balları.** Bir hakimin bir komandaya verdiyi toplam xam bal digər komandaya verdiyi toplam xam balı üstələyirsə, komanda həmin hakimdən 2 (iki) raund balı qazanır. Hakim hər tərəfə eyni toplam balı verirsə, ərizəçi ilə cavabverən hər biri 1 (bir) raund balı qazanır. Bir komandanın bir raundda üç hakimdən ala biləcəyi maksimum raund balı 6 (altı) baldır. Məsələn:

| *Komanda* | *Çıxışçı* | *Hakim 1* | *Toplam* | *Hakim 2* | *Toplam* | *Hakim 3* | *Toplam* |
|---|---|---|---|---|---|---|---|
| 10 *Ərizəçi* | 1-ci | 80 | 158 | 79 | 155 | 82 | 160 |
| | 2-ci | 78 | | 76 | | 78 | |
| 15 *Cavabv.* | 1-ci | 78 | 153 | 76 | 150 | 81 | 157 |
| | 2-ci | 75 | | 74 | | 76 | |

*Şifahi çıxışların xülasəsi*: Ərizəçi birinci, ikinci və üçüncü hakimin hər birindən daha yuxarı bal almaqla toplam 6 raund balı qazanır. Ərizəçi komanda şifahi qiymətləndirmədən 473, cavabverən komanda isə 460 xam bal qazanmışdır.

Yazılılar və şifahilər üzrə raund balların cəmlənməsi nəticəsində Ərizəçi 8 (səkkiz), cavabverən 1 (bir) yekun raund balı aldığına görə ərizəçi raundun qalibidir. Beləliklə, Ərizəçinin xeyrinə bir qalibiyyət yazılır.

VII.3. **Seçim və Yarımfinal mərhələlərində sıralama**. Hər mərhələdə sıralama qalibiyyət çoxluğu ilə müəyyən olunur; komandanın müvafiq mərhələdə iştirak etdiyi raundlar üzrə qalibiyyəti nə qədər çoxdursa, sıralamada bir o qədər yuxarı yer alır. Qalibiyyət sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, daha çox bərabərlik əldə etmiş komanda daha yuxarı sırada yer alır. Bərabərlik sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət

etmirsə, ardıcıllıq toplanmış xam bal üzərindən müəyyən edilir. Xam bal da sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, sıralama cəmi raund balları əsasında dəqiqləşdirilir.

VII.4. **Sıralamada bərabərlik və ya heç-heçə halı**. Sıralama zamanı bir neçə komanda bir yeri bölüşürsə, sıralamanın dəqiqləşdirilməsi üçün aşağıdakılar ardıcıllıqla bərabərlik aradan qalxana qədər tətbiq olunur:

i. Bu hal həmin komandanın yuxarı raunda keçməsinə və yuxarı raunddakı komandaların qarşılaşma şəklinə təsir etmirsə, belə komandalar sıralamada eyni yeri tutmuş hesab olunur. Bu şərt qarşılanmırsa, aşağıdakı qayda tətbiq olunmaqla sıralama dəqiqləşdirilir.

ii. Bir yeri yalnız iki komanda bölüşürsə və bu iki komanda əvvəlki mərhələdə qarşılaşıbsa, həmin qarşılaşmanın qalibi sıralamada yuxarı yeri tutur. Bu komandalar əvvəlki mərhələdə qarşılaşmayıbsa, sıralama aşağıdakı qaydalar ardıcıllıqla tətbiq olunmaqla dəqiqləşdirilir.

iii. Şifahi raundlarda toplanmış xam bal 4-ə bölünməsi və hər iki Yazılıdan toplanmış cəmi bal 6-ya bölünməsi ilə tapılmış iki orta qiymətin toplanmasından ən yuxarı nəticə göstərən komanda sıralamada önə keçir.

iv. Rəqibinin qalibiyyətlərini sırf bu məqsəd üçün topladıqda (bərabərlik yarım qalibiyyət hesab olunmaqla) rəqibi daha çox qalibiyyət almış komanda sıralamada önə keçir.

v. Şifahi raundlarda toplanmış xam balı 4-ə bölündükdə orta qiyməti ən yuxarı olan komanda sıralamada önə keçir.

vi. Yuxarıdakılardan heç biri bərabərliyi aradan qaldırmağa imkan vermirsə, Təşkilatçı Müsabiqənin və iştirakçıların maraqlarını nəzərə almaqla bərabərlik pozma üsulu müəyyən edərək tətbiq edir.

VII.5. **Nəticələrin elanı**. Təşkilatçı hər mərhələ bitdikdən sonra iştirakçılara sıralamada tutduqları yer barədə məlumat verir. Hər mərhələ üzrə qiymətləndirmə yekunlaşdıqdan sonrakı 24 (iyirmi dörd) saat ərzində Təşkilatçı hər komandaya iştirak etdikləri raundların qiymətləndirmə hesabatını Müsabiqə veb-saytındakı komanda səhifəsinə yerləşdirir. Müsabiqə yekunlaşdıqdan sonrakı 14 (on dörd) gün ərzində Müsabiqənin yekun sıralamaları və nəticələri barədə ətraflı məlumat Müsabiqə veb-saytında yerləşdirilir.

## VIII. Tətbiq olunan hüquq

VIII.1. **Yerli qanunvericilik**. Azərbaycan Respublikası qanunvericiliyinə daxil olan bütün aktlar (o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr) arqumentlərin əsaslandırılması üçün tətbiq oluna bilər.

VIII.2. **İcraat qaydası**. Müsabiqə İşində nəzərdə tutulan həddə işə baxılma prosesini tənzimləyən akt kimi "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınır.

VIII.3. **Xarici praktika və doktrinal mənbələr**. Xarici ölkələrin hüquq praktikasına və akademik/doktrinal mənbələrə də istinad edilə bilər.

## IX. Cəzalar

IX.1. **Üz səhifəsi məlumatları**. Hər hansı komandanın Yazılının üz səhifəsi ilə

bağlı II.3 qaydasını pozması 2 (iki) balla cəzalandırılır və müvafiq Yazılı üzrə hər bir hakimin balından bu cəza balı çıxılır.

IX.2. **Yazılıların müvafiq sayda təqdim olunmaması**. III.3 qaydasında müəyyən olunmuş saydan az sayda çap olunmuş Yazılıların verilməsi cəzalandırılır. Komanda hər bir çatışmayan Yazılı üçün 5 (beş) balla cəzalandırılacaqdır və bu bal həmin raund üzrə komanda cəzası kimi nəzərə alınır. Belə cəza hər hakimin komandanın raundda iştirak edən hər bir üzvünə verdiyi baldan çıxılır.

IX.3. **Yazılıların gec təqdimatı**. Hər hansı bir komanda öz Yazılılarını Təqvimdə nəzərdə tutulmuş son tarixdən sonra II.6 və II.7 qaydalarını pozmaqla təqdim edərsə, həmin tarixdən sonrakı hər 1 (bir) gecikmə günü 3 (üç) balla cəzalandırılır. Bu cəza balı hər iki Yazılının hakimlərin hər birindən aldığı baldan çıxılır. Komanda Yazılılarını Təqvimdə müəyyən olunmuş son tarixdən sonrakı 5 (beş) gün ərzində təqdim etmirsə, Müsabiqədən kənarlaşdırılır.

IX.4. **Normadan artıq uzunluq**. Komandalar Yazılı üzrə Qaydalarda müəyyən olunmuş söz sayı limitini keçməyə görə limiti keçən hər 1-100 arası söz üçün 3 (üç) balla cəzalandırılır. Bu cəza balı Yazılının hakimlərin hər birindən aldığı baldan çıxılır.

IX.5. **Şifahi raundlara gecikmə**. Komandanın sessiyanın keçiriləcəyi yerə əvvəlcədən məlumat verilmiş tarixdə və saatda gəlməməsinə görə gecikilən hər 15 (on beş) dəqiqə 5 (beş) balla cəzalandırılır. Belə cəza hər hakimin komandanın raundda iştirak edən hər bir üzvünə verdiyi baldan çıxılır.

IX.6. **Plagiat hallarının müəyyənləşdirilməsi**. Yazılılarda plagiarizmdən istifadə həmin Yazılı üçün 1-50 bal aralığında cəza ilə nəticələnir.

Plagiarizmdən istifadə həcmi əhəmiyyətli olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

IX.7. **Əlavə vasitələrdən istifadə.** Çıxış edən komanda üzvləri raundda saat istifadə edə bilərlər, lakin digər elektron vasitələrin istifadəsi qadağandır. Həmin vasitələrdən istifadəyə görə 5 (beş) bal cəza verilir.

IX.8. **Süni intellektdən istifadənin yolverilməzliyi**. Aşağıdakılar süni intellektdən istifadənin qaydalarını pozur:

i. Süni intellekt vasitəsilə yaradılmış mətni təqdim etmək, mətn sonradan dəyişdirilmiş və ya buna əlavələr edilmiş olunsa belə;
ii. TEC-in Müsabiqə ilə əlaqəli paylaşdığı materiallardan istifadə etməklə süni intellekti öyrətmək.

Süni intellektdən istifadə həmin memorandum üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. İstifadənin həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

IX.9. **Diskresion cəza**. Peşəkarlığa, etikaya, habelə raundda və hakimlərlə qərəzli davranış, rəqibləri ədalətsiz üstələmə cəhdləri, hakimlərə kimlik barədə işarə vermək, hakimlərin qiymətləndirmə müzakirəsinə müdaxilə kimi Müsabiqənin gedişatını təhlükəyə salan və Müsabiqənin məqsədlərinə zidd əməl üzrə Təşkilatçı diskresion cəza tətbiq etmək hüququnu özündə saxlayır.

# X. Nominasiyalar

Təşkilatçı “Topçubaşov Məhkəmə Müsabiqəsinin Qalibi”, “Topçubaşov Məhkəmə Müsabiqəsinin Finalisti” adından başqa, "Ən Yaxşı Ərizəçi Yazılısı", "Ən Yaxşı Cavabverən Yazılısı", "Ən Yaxşı Natiq" və Müsabiqənin məqsədləri üzrə uyğun bildiyi digər nominasiyalar üzrə qalibləri elan edə bilər.